## GÜNÜN SİYASİ NƏBZİ





# Bakı-Tehran münasibətlərində artan dinamika: tərəfdaşlığın etibarlı arxitekturası



***Azərbaycan ilə İran İslam Respublikası arasında ticari və iqtisadi əməkdaşlıq əlaqələri son illərdə yeni mərhələyə qədəm qoyub. Ticarət dövriyyəsində müşahidə olunan sabit artım qarşılıqlı maraqlara əsaslanan münasibətlərin daha da gücləndiyini göstərir. Əgər 2005-ci ildə Azərbaycan ilə İran arasında ümumi ticarət dövriyyəsi 242 milyon 786,4 min ABŞ dolları təşkil edirdisə, ötən ilin sonunda bu rəqəm 647,1 milyon dollara çatıb. Bu, 2023-cü ilə nisbətən 32,8 faiz və ya 159,7 milyon dollar artım deməkdir. Bu göstəricilər fonunda İran Azərbaycanın vacib ticarət tərəfdaşları sırasında öz mövqeyini möhkəmləndirib.***

Hazırda İranla ticarət Azərbaycanın ümumi ticarət dövriyyəsinin 1,3 faizini təşkil edir. 2024-cü ilin göstəriciləri bu istiqamətdə irəliləyişin bariz nümunəsidir. Ötən il ərzində Azərbaycan İrana təqribən 14 milyon ABŞ dolları dəyərində məhsul ixrac edib. İranmənşəli malların idxalı 633 milyon dollara çatıb ki, bu da əvvəlki illə müqayisədə 33,8 faiz artım deməkdir. Beləliklə, İran məhsulları ölkəmizin ümumi idxalının 3,01 faizini təşkil edib. Bu fakt İranın Azərbaycan bazarında daha fəal iqtisadi aktora çevrildiyini göstərir. Müsbət tendensiya davam edir. Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, yanvar-mart aylarında Azərbaycan və İran arasında ticarət dövriyyəsi 157,2 milyon dollar olub. Bu isə ötən ilə nisbətən 22,3 milyon dollar artım deməkdir. Əldə olunan nəticələr iki ölkə arasında dərinləşən iqtisadi əməkdaşlıq imkanlarının göstəricisidir. Azərbaycan ilə İran İslam Respublikası arasında formalaşan çoxşaxəli əməkdaşlıq nəqliyyat-logistika, enerji və regional inteqrasiya sahələrini də əhatə edir. Ortaq tarixi, mədəni və dini köklərə söykənən bu əlaqələr günümüzdə regional sabitlik və inkişaf üçün strateji əhəmiyyət daşıyır.

Azərbaycan və İran arasında ən mühüm əməkdaşlıq istiqamətlərindən biri beynəlxalq yükdaşımalar və nəqliyyat-logistika sahəsidir. Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi çərçivəsində Astara-Astara və Astara-Rəşt dəmir yolları üzrə layihələr iki ölkənin infrastruktur inteqrasiyasını daha da gücləndirir. İran Prezidenti Məsud Pezeşkianın son müsahibəsində bu məqama xüsusi diqqət yetirməsi Astaradan Fars körfəzinə qədər uzanan potensial nəqliyyat əlaqələrinin vacibliyini ortaya qoyur. Azərbaycanın bu dəhliz vasitəsilə İran üzərindən Fars körfəzinə çıxışı, həmçinin İrandan keçərək Rusiya ilə daha sürətli ticarət əlaqələrinin qurulması strateji üstünlük qazandırır. Bu istiqamətdə həyata keçirilən infrastruktur layihələri hər iki ölkənin maraqlarına xidmət edir və regionun nəqliyyat xəritəsində yeni güc balansı formalaşdırır.

Əməkdaşlığın mühüm aspektlərindən biri də İran ərazisi üzərindən Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında quru əlaqənin yaradılmasıdır. Hazırda sürətlə reallaşdırılan layihə həm humanitar, həm də strateji baxımdan xüsusi əhəmiyyət daşıyır. İran Prezidenti bildirib ki, yolun təhlükəsiz və davamlı istifadəsi üçün yüksəkixtisaslı mütəxəssislərin iştirakı ilə layihə dəyərləndirilib.




Azərbaycan-İran münasibətlərində diqqətçəkən digər sahə isə bərpaolunan enerji əməkdaşlığıdır. Prezident Pezeşkianın vurğuladığı kimi, Araz çayının üzərindəki mövcud və planlaşdırılan su bəndləri "yaşıl enerji" istehsalı üçün ideal şərait yaradır. Bu, yalnız hidroenerji ilə məhdudlaşmır - günəş və külək enerjisi sahəsində də əməkdaşlıq imkanları genişdir. İki ölkənin aidiyyəti qurumları bu istiqamətdə birgə layihələrin icrasını gündəmdə saxlayır və bu, regionun dayanıqlı enerji strategiyasına töhfə verə bilər. İran Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra onu tanıyan ilk dövlətlərdən olub. Həmin vaxtdan bu günə qədər tərəflər arasında mədəni, dini və iqtisadi baxımdan ortaq dəyərlərə əsaslanan münasibətlər inkişaf edib. 1990-cı illərin əvvəllərində Ermənistan tərəfindən blokadaya alınmış Naxçıvan Muxtar Respublikasının kommunikasiya və enerji təchizatı məsələlərinin həllində İran böyük rol oynayıb. Əməkdaşlıq protokoluna əsasən muxtar respublika üçün maye qaz və elektrik enerjisi təmin edilib, qaz kəməri çəkilməsi üçün İran hökuməti maliyyə vəsaiti ayırıb. Bu, ümummilli lider Heydər Əliyevin siyasi iradəsi və diplomatik səyləri nəticəsində mümkün olmuşdu. 1993-cü ildə imzalanmış memorandum və onlarla siyasi, iqtisadi, elmi-texniki sənəd əməkdaşlığın hüquqi bazasını möhkəmləndirdi. 1994-cü il 29 iyun - 2 iyul tarixlərində Heydər Əliyevin başçılığı ilə Azərbaycan nümayəndə heyəti İrana rəsmi səfər etdi. Səfər zamanı siyasi, iqtisadi, elmi-mədəni əməkdaşlığa dair 7 sənəd, o cümlədən Azərbaycanla İran arasında dostluq münasibətlərinin inkişafına dair bəyanat imzalandı.

Prezident İlham Əliyev də İranla münasibətlərə xüsusi önəm verir. 2004-cü ildə İran dövlət başçısının Azərbaycana səfəri zamanı Naxçıvanın elektrik və qaz təchizatına dair razılaşmalar əldə edildi. 2005-ci ildə Prezident İlham Əliyevin Tehrana səfəri zamanı Araz çayının hidroenergetika imkanlarının birgə istifadəsi və mülki aviasiya sahəsində əməkdaşlıq sənədlərlə rəsmiləşdirildi. Həmin ilin sonunda İran Prezidenti Mahmud Əhmədinejadın Naxçıvana səfəri və qaz kəmərinin açılışında iştirakı enerji əməkdaşlığının reallığa çevrildiyini sübut etdi. Bu layihə Naxçıvanın qazla fasiləsiz təminatını və iqtisadi blokadanın qismən aradan qalxmasını təmin etdi. 2010-cu ildə imzalanan enerji və nəqliyyat üzrə anlaşmalar, xüsusilə Şimal-Cənub Nəqliyyat Dəhlizi çərçivəsində əməkdaşlıq Azərbaycanın regional logistika mərkəzinə çevrilməsində mühüm rol oynadı. Ordubad və Marazad Su Elektrik Stansiyalarının tikintisinə dair sazişlər enerji təhlükəsizliyində qarşılıqlı maraqları ifadə etdi. 2016-cı ildə imzalanmış hökumətlərarası sazişə əsasən Astara çayı üzərində dəmir yolu körpüsünün inşası, Neftçala Sənaye Zonasında avtomobil zavodu və Pirallahı Sənaye Parkında əczaçılıq müəssisəsinin təməlinin qoyulması əməkdaşlıqda yeni mərhələ oldu. Bu layihələr, eyni zamanda texnologiya transferi və birgə istehsal modelinin qurulması baxımından əhəmiyyətli idi. Bütün bu addımlar İranın Azərbaycan vasitəsilə Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinə çıxış imkanlarını artırmaqla yanaşı, Azərbaycanın tranzit ölkə statusunu da gücləndirib. İran məhsullarının Avropa bazarlarına çatdırılması üçün Azərbaycanın ərazisindən istifadə logistik baxımdan səmərəlidir. Aprel ayında İran Prezidenti Məsud Pezeşkianın Azərbaycana səfəri çərçivəsində imzalanmış yeni sənədlər və dövlət başçıları arasında aparılan danışıqlar Azərbaycan-İran münasibətlərinin növbəti strateji mərhələyə keçdiyini göstərir. Səfər çərçivəsində nəqliyyat, enerji, sənaye kooperasiyası və sərhədyanı əməkdaşlıq məsələləri üzrə razılaşmaların əldə olunması iki ölkənin regional və beynəlxalq miqyasda əməkdaşlıq potensialını nümayiş etdirir. Xüsusilə, Astara-Rəşt dəmir yolu xətti üzrə əməkdaşlıq, Naxçıvanla Azərbaycan arasında quru yolun təhlükəsiz şəkildə bərpası və Araz çayının "yaşıl enerji" üçün istifadəsi sahəsində layihələr gələcək üçün çoxşaxəli strateji platforma yaradır.

Azərbaycan-İran münasibətləri ortaq tarixə, qarşılıqlı etimada və siyasi iradəyə əsaslanır. Regional əməkdaşlığın genişlənməsi, enerji və nəqliyyat şəbəkələrinin inteqrasiyası, sənaye və texnoloji sahələrdə birgə layihələr münasibətlərin dayanıqlı inkişafının təminatçısıdır. Hazırkı geosiyasi reallıqlar fonunda Azərbaycan-İran əlaqələri Cənubi Qafqazda sülh, sabitlik və davamlı inkişaf üçün əməkdaşlıq nümunəsinə çevrilir.

**Firuzə XUDİYEVA,**
**"Respublika".**